UOT 327; 930.22
DOI: 10.30546/3006-0346.2024.5.83.012

# ÇİNİN KƏMƏR VƏ YOL TƏŞƏBBÜSÜNÜN "MİLLİ İNTİBAH" VƏ "İKİLİ DÖVRİYYƏ STRATEGİYASI" PRİZMASINDAN ANALİZİ

**AĞALAR AĞALARLI**
*Qərbi Kaspi Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasının doktorantı*
*E-mail: aghalaraghalarli@gmail.com*

Rəsmi olaraq, Kəmər və Yol Təşəbbüsü (KYT ) Çinin dünya ilə ticari və iqtisadi əlaqələrini inkişaf etdirmək məqsədini daşıyan qlobal infrastruktur layihələri zənciri kimi təsvir edilsə də, əsasən "Qlobal Cənub"a yönəlmişdir. Bu mənada Çin Beynəlxalq İnkişaf Əməkdaşlığı Agentliyinin (BİƏA) direktoru Luo Jaohuyinin 2021-ci ildə səsləndirdiyi fikirlər diqqətə layiqdir: "Prezident Şi Cinpinqin təklif etdiyi Kəmər və Yol Təşəbbüsü Çinin dünyaya töhfə verdiyi mühüm ictimai sərvətdir. Bu layihə qitələrarası körpü yaradır, qlobal miqyasda genişlənir, qədim və müasir dövrləri birləşdirir və uzaqgörən faydalar təqdim edir."

Luo həmin çıxışında bir az da irəli gedir: "Bəziləri tərəfindən yer üzündəki ən nəcib iş kimi təriflənməsinə baxmayaraq, xarici yardım getdikcə tüstüsüz döyüş meydanına çevrilir, çünki böyük dövlətlər bu sahəyə daha çox sərmayə yatırmaqla siyasi sistemlər və ideologiyalar üzərində gedən əbədi rəqabətdə üstünlük əldə etməyə çalışır. Beynəlxalq yardım marksist beynəlmiləlçilik ideyasının mühüm komponentidir. Kommunist Manifestində də deyildiyi kimi, "proletariat yalnız bütün bəşəriyyəti azad edərsə, özü də azad ola bilər." Başqa bir qısa çıxışı zamanı Luo KYT üzərindəki ən fundamental mübahisənin məğzinə toxunur: "Bu, ictimai fayda, yoxsa tüstüsüz döyüş meydanıdır? Əgər ikinci variantdırsa, bu, Çinin milli maraqları üçün aparılan mübarizədir, yoxsa ideolojidir?" [1].

Bir şüar kimi Kəmər və Yol Təşəbbüsü Çin Kommunist Partiyası rəhbərliyinin Qərb ölkələrinin təklif etdiyi inkişaf yardımlarına alternativ ortaya qoyma arzusunu əks etdirir. Bu zaman onlar Çinin infrastruktur inşasındakı təcrübəsindən istifadə edərək onu daha cəlbedici hala salmağa ümid edirlər. Əksər "şüar siyasətləri" zamanla təkamül edir və dəyişir. Ona görə də KYT-nin irəli sürüldüyü 2013-cü ildəki məqsəd və hədəfləri ilə 2024-cü ildəkinin eyni olduğunu düşünmək yanlış ola bilər. Çinin digər dövlətlərlə beynəlxalq münasibətləri son on ildə necə dəyişibsə, KYT-nin məqsədləri də eləcə dəyişmişdir.

KYT-ni Çinin Şi Cinpinq hakimiyyətə gəldikdən sonra götürdüyü siyasi istiqamət dəyişikliyi kontekstində nəzərdən keçirmək vacibdir. İndi KYT adlandırdığımız konsepsiyanın bir çox aspektləri çoxdan Çinin xarici dünya ilə iqtisadi əlaqə planının bir hissəsi olub. Çinin Afrika ilə əməkdaşlığı buna yaxşı bir nümunədir. KYT-də böyük rol oynayan bir çox institutlar Şi Cinpinqin layihəni elan etməsindən əvvəl mövcud idi. Məsələn, Çin Zambiyanı keçmiş Rodeziya və Cənubi Afrikadan olan asılılığını azaltmaq üçün 1970-ci illərdə Tanzaniya-Zambiya dəmir yolunu tikmişdi.

KYT-ni Şi Cinpinqin rəhbərliyində Çinin siyasi prioritetləri kontekstində nəzərdən keçirmək faydalı olar. Çin dövlətinin Şi dövründəki ən önəmli hədəfi "Çin Arzusu"nu təbliğ etmək və gerçəkləşdirməkdir. Şi bu ifadəni 2012-ci ildə hakimiyyətə gəldikdən qısa müddət sonra Çin Milli Muzeyində nümayiş etdirilən "Milli İntibah Yolu" adlı sərgini ziyarət edərkən səsləndirmiş və təşviq etmişdir. "Milli İntibah" və "Çin Arzusu" tez-tez bir-birinin əvəzi olaraq istifadə olunur. ABŞ-ın sabiq müdafiə nazirinin köməkçisi Qraham Allison bu barədə belə demişdi: "Şi Cinpinq hakimiyyətə gələndə Çinin əsas məqsədini bir ifadə ilə bəyan etdi: "Ən böyük Çin arzusu Çin millətinin böyük intibahıdır". Onun "Çin Arzusu" firavanlıq və gücü birləşdirir və bu mənada, həm Teodor Ruzveltin "ABŞ əsri" ilə bağlı əzələli vizyonuna, həm də Franklin Ruzveltin "Dinamik Yeni Sövdələşməsi"nə bərabər hesab etmək olar. Bu, bir milyard çinlinin zəngin olmaq, güclü olmaq və hörmət edilmək arzusunu əks etdirir. Şi inanır ki, iqtisadi möcüzəsini davam etdirərək, vətənpərvər bir xalq yetişdirərək və dünya işlərində heç bir gücə boyun əyməyərək öz ömrü ərzində Çinin bu üç arzusunu reallaşdıra bilər." [2]

Əgər "Milli İntibah" Şi Cinpinqin böyük dizaynıdırsa, iqtisadi məqsədlər Çini 2021-ci ilə qədər "orta səviyyədə firavan bir cəmiyyət"ə və 2049-cu ilə qədər "tam inkişaf etmiş, zəngin və güclü" bir ölkəyə çevirməkdir. Çin Arzusunun iqtisadi məqsədini həyata keçirmək üçün metodu Çinin "İkili Dövriyyə Strategiyası"dır (İDS).

İDS ifadəsi Çin iqtisadi siyasətinin lüğətinə 2020-ci ilin may ayında ÇKP-nin Siyasi Büro Daimi Ko-

mitəsinin iclasından sonra daxil olanda, bu strategiyanın nəyi nəzərdə tutduğu tam aydın deyildi. Buna görə də İDS-in Çinin iqtisadi artımına və ya dünya ilə əlaqələrinə təsiri haqqında əhəmiyyətli şərhlər az olub. İDS-ni anlamaq üçün Çinin son 50-60 ildə keçdiyi iqtisadi inkişaf yoluna nəzər yetirmək vacibdir.

1970-ci illərin sonu Den Syaopinin "Açıq Qapı" siyasətinin başlanğıcı idi. Bu siyasət Çinə lazımi valyutanı gətirmək üçün tənzimləmə və nəzarətdən nisbətən azad xüsusi iqtisadi zonalar vasitəsilə birbaşa xarici investisiyaları cəlb etmək məqsədi daşıyırdı. Çin həmçinin öz ilkin sənaye bazasını inkişaf etdirmək və ixraca yönəlik artım modelini dəstəkləmək üçün xarici ekspertizaya ehtiyac duyurdu.

Həmin dövrdə ortaya atılmış "Böyük beynəlxalq dövriyyə strategiyası" çinli tədqiqatçı Van Cianın beyninin məhsulu idi. 1987-ci ildə Van ixraca yönəlik artım modelini açıqladı ki, bu da Çinin cəmi bir nəsil ərzində qlobal ticarətin zirvəsinə çatmasına kömək etdi. "Açıq Qapı" siyasəti 1999-cu ildə dövlətə məxsus müəssisələrin beynəlxalq fəaliyyətini genişləndirmək məqsədi daşıyan "Xaricə çıxma" siyasəti ilə öz qarşılığını tapdı.

2009-cu ildəki qlobal maliyyə böhranından sonra daxili investisiya Çinin iqtisadi artımını dəstəkləyən ixrac sektorunu üstələməyə başladı. 2015-ci ildə Baş nazir Li Ketsiang tərəfindən elan edilən "Made in China 2025" kampaniyası Çinin ən son sənaye siyasəti iterasiyasıdır. Bu dəfə məqsəd qabaqcıl istehsalı təşviq etmək və gələcəyin sənayelərində milli özünütəminatı artırmaqdır. Çinin yüksəliş tarixi göstərir ki, zahirən sadəcə şüar kimi görünən şeylər əslində ciddi istiqamət dəyişikliyində əsas nöqtələr ola bilir. İDS də belə bir dönüş nöqtəsi kimi qəbul edilə bilər.

Çinin prizmasından qlobal cəmiyyətin onun yüksələn gücünə və ambisiyalarına qarşı ehtiyatlı yanaşması, onun strateji zəifliklərinə dair bir sıra problemləri gündəmə gətirir.

İqtisadi sahədə Çin enerji və ərzaq təhlükəsizliyini təmin etmək, eləcə də qabaqcıl texnologiyalara, xüsusən də yarımkeçiricilərə görə idxaldan asılı vəziyyətdədir. Bu problemi aradan qaldırmaq üçün məntiqi siyasət istiqaməti mümkün olduğu qədər öztəminatı artırmaqdır.

İxrac cəbhəsində də yenidən yönləndirmə baş verir. Xalis ixrac struktur tənəzzüldə olsa da, ixrac sektoru hələ də böyük işçi qüvvəsi saxlayır və Çinin ÜDM-in təxminən 18%-ni təşkil edir [3]. Şi Cinpinq rəhbərliyi altında Çin ixracı inkişaf etmiş ölkələrdən uzaqlaşdırıb və öz qonşularına, eləcə də daha kiçik iqtisadiyyatlara yönəldib ki, burada da güclər arasında tarazlıq Çinin xeyrinə kəskin şəkildə asimmetrikdir.

Bütün bu tədbirlər kontekstində onu demək olar ki, İDS-in mərkəzində Çinin iqtisadiyyatının daxili istehsal, paylama və tələbat dövriyyəsi ilə beynəlxalq dövriyyə arasında ikili bölgüsü dayanır. Yəni, Çin həm daxili iqtisadi tələbatını öz hesabına təmin etməyə qadir olmalı, idxaldan asılılığını minimuma endirməli, amma eyni zamanda beynəlxalq iqtisadiyyatdakı mövqeyini itirməməli və ixracatını genişləndirməlidir.

İDS-nin əsas anlayışları bunlardır: Partiyanın həm yerli, həm də beynəlxalq sferada iqtisadiyyatda mərkəzi mövqeyinin bərpa edilməsi; daxili və beynəlxalq addımlar Milli İntibahı təmin etmək üçün tandemdə aparılır; və "Çin Arzusu"nu reallaşdırmaq üçün tələb olunan gələcəyin sənaye sahələrində üstünlük qazanmaq məqsədilə texnoloji öztəminata (öz resursları hesabına daxili tələbatını ödəmək) çalışılır. İDS-nin beynəlxalq miqyası Çinin beynəlxalq iqtisadi əlaqələrinin milli intibah məqsədinə necə töhfə verə biləcəyinə yönəlib. Bunun ən azı beş əsas aspekti var: ixrac bazarlarının inkişafı vasitəsilə əldə edilən xarici valyuta gəliri; Çinin, xüsusilə, az inkişaf etmiş qərb əyalətlərindən ixrac vasitəsilə inkişafın və məşğulluğun təmin olunması; Yuanın (Çin valyutası) beynəlxalq istifadəsinin təşviqi ilə potensial iqtisadi sanksiyalarından yan keçmək; strateji materialların tədarükünün təmin edilməsi; Çin-mərkəzliliyi dəstəkləmək və dünyanı Çin maraqlarına uyğun yenidən qurmaq üçün təsir imkanlarının artırılması; və texnologiya, intellektual mülkiyyət və ekspertizanın əldə edilməsi ilə Çinin öztəminatına nail olunması. Sırf iqtisadi mənada, İDS-nin beynəlxalq qolunun iki hissəsi var: cari hesabla (ixrac və idxal) əlaqəli olan və kapital hesabı ilə (investisiya) əlaqəli olan. Bu prizmadan KYT-yə Çinin İkili Dövriyyə Strategiyasının ikinci qolunu, yəni kapital hesabı hissəsini əhatə edən "şüar siyasəti" kimi baxmaq olar. Bir sözlə, bütün məsələ kapital hesabından "Çin Arzusu"nu irəlilətmək üçün necə istifadə oluna biləcəyidir.

Lakin, təkcə iqtisadi siyasət deyil, xarici siyasət də Şi Cinpinqin dövründə Milli İntibahın böyük strategiyasına uyğunlaşmaq üçün dəyişikliyə məruz qalmışdır. Çinin dünyaya iqtisadi inteqrasiyasının ilk dövrlərində xarici siyasəti Den Syaopinin məşhur ifadəsi ilə ən yaxşı şəkildə ifadə olunurdu: "sakitcə müşahidə et, mövqelərimizi möhkəmləndir, təmkinli ol, imkanlarımızı gizlət və vaxtımızı gözlə, aşağı profildə qal, heç vaxt liderlik etmə və töhfə ver". Bu "tao guang yang hui" (işığını kolun altında

gizlətmək) anlayışı ya birinin öz həqiqi imkanlarını gizlətmək üçün bir fənd, ya da beynəlxalq münasibətlərə liderlik etməmək yanaşması kimi izah edilə bilər [4]. Ancaq Şi Cinpinqin dövründə Çinin mövqeyi dəyişib. Təkcə "Milli İntibah" konsepsiyası (hansı ki, bəzi kontekstlərdə güclü etnosentrik çalarlar daşıyır) siyasi məqsədlər leksikonunda ən yüksək səviyyəyə çatmayıb, həm də milliyyətçi meyillər beynəlxalq münasibətlərə daha iddialı və sərt yanaşmada özünü göstərib. Bu yanaşma "Çin xüsusiyyətləri ilə Böyük Ölkə Diplomatiyası" şüarı altında öz əksini tapıb.

Hərbi baxımdan bu, ən çox Cənubi Çin dənizi və Şərqi Çin dənizində müşahidə olunur. Burada "boz zona" əməliyyatlarının sayı və intensivliyi artıb və Çin öz irredentist iddialarını irəli sürməyə başlayıb. [5]. KYT həm Çinin hərbi təsir dairəsinin genişlənməsini asanlaşdırıb, həm də Çinə məxsus xaricdəki aktivlərin təhlükəsizlik tələblərindən dolayı bunu zəruri edib. Bu təsir dairəsi və tələblər artıq Çinin yaxın ətrafından xeyli kənara çıxıb.

Diplomatik baxımdan, Çin daha çox Çin mərkəzli institutlar və təşkilatlar yaratmağa çalışıb. Məsələn, 2001-ci ildə Rusiya və Çin liderliyi altında qurulan Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilkin olaraq 1996-cı ildə formalaşdırılmış Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan və Tacikistandan ibarət olan Şanxay Beşliyindən ortaya çıxmışdır. Bu təşkilatın məqsədi üzv dövlətlər arasında təhlükəsizlik və iqtisadi əməkdaşlığı dərinləşdirməkdir. ŞƏT ilkin olaraq Çinin sərhədində yerləşən Avrasiya torpaqlarına yönəlmişdi, lakin hazırda Pakistan, İran, Şri-Lanka və NATO üzvü Türkiyə kimi uzaq ölkələri də əhatə edir. ŞƏT-in böyük genişlənməsi isə 2017-ci ildə Hindistan və Pakistanın üzv qəbul edilməsi ilə başverib. Təsadüfi deyil ki, ŞƏT üzvləri və KYT ilə bağlı investisiyalar arasında əhəmiyyətli bir üst-üstə düşmə mövcuddur. ŞƏT Çin tərəfindən xüsusilə Qlobal Cənubla yaradılmış diplomatik qruplardan yalnız biridir. KYT-də iştirak özü də ikitərəfli anlaşma memorandumunu tələb edir. Təxminən 150 ölkə, o cümlədən, Cənubi Qafqazın hər üç ölkəsi Çinlə belə bir memorandum imzalayıb.

Amerikalı diplomat Qari Ronsli Çinin bu addımlarını belə şərh edib: "Çin hökuməti indi güc, özünəinam, rifah və siyasi məsuliyyət hekayəsini yaratmaq üçün tarixdə heç vaxt olmadığı qədər ictimai diplomatiya strategiyasına əhəmiyyətli resurslar yatırır ki, bu da Çinlə bağlı mövcud olan geniş yayılmış "insan hüquqlarını pozan, regional və qlobal sabitliyi təhdid edən revizionist bir güc" fikirlərinə meydan oxuya bilər" [6].

## Nəticə

Bu təhlildən üç vacib nəticə çıxarmaq olar. Birincisi, KYT ayrıca, izolyasiya edilmiş şəkildə başa düşülə bilməz. Bu, bir siyasi şüarı kimi, Çinin "Milli İntibah" üçün böyük strategiyası kontekstində nəzərdən keçirilməlidir. İqtisadi mənada, KYT İkili Dövriyyə Strategiyasının beynəlxalq ölçüsü ilə sıx əlaqəlidir. Diplomatik və siyasi mənada isə, bu, Çinin qlobal idarəetmədə öncül mövqeyə keçmək məqsədini vurğulayan, müasir dövr üçün "böyük ölkə diplomatiyası" kimi tanınan, güclü, revizionist bir yanaşma ilə bağlıdır.

İkincisi, KYT-nin həqiqi geosiyasi təsiri onun qlobal düzəni Çinin maraqlarına daha uyğun şəkildə dəyişdirməkdə nə dərəcədə uğurlu olduğu ilə, ideoloji təsiri qlobal siyasət quruculuğunun Çinin idarəetmə modelinə yaxınlaşması ilə bağlı dəyişikliklərlə, inkişaf təsiri isə iştirakçı ölkələrdə həyat standartlarının nisbi artımı ilə ölçülə bilər. KYT-nin hansı meyarlarla qiymətləndirilməli olduğunu müəyyənləşdirmək onun məqsədlərindən çox asılıdır.

Üçüncüsü isə, Çinin siyasət şüarları əhəmiyyətlidir – onlar siyasətin istiqamətində mühüm dönüş nöqtələrinə işarə edirlər. Bu mənada, İkili Dövriyyə Strategiyasından Çinin iqtisadiyyatının getdikcə beynəlxalq deyil, daha çox daxili amillərə fokuslanacağını anlamaq olar. Çünki, Çin iqtisadi dayanıqlılıq məqsədilə mümkün olduqca idxalı yerli resurslarla əvəzləməyə yönələcək. Belə bir addım ehtimal ki, resursların səmərəli paylanmasında və buna görə də iqtisadi artımda bir az itkiyə səbəb olacaq. Bunun əvəzində, qaçılmaz olaraq, Çin daxili sənaye siyasətinə daha çox diqqət yetirəcək ki, özünü potensial geoiqtisadi siyasət tədbirlərindən qorusun. Onu da vurğulamaq lazımdır ki, İDS həmçinin iqtisadi artımın miqdarından çox, keyfiyyətinə üstünlük verirmiş kimi görünür. Artım keyfiyyətinin əsas ölçülərindən biri isə var-dövlətin və gəlirin bərabər paylanma dərəcəsidir. Nəticə etibarilə İkili Dövriyyə Strategiyası iqtisadi fəaliyyətin yüksək səviyyədə siyasiləşdiyi yeni bir dövrün başlanğıcını göstərə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Jaohuyi, L. (2022, 14 iyun). China's Foreign Aid and International Development Cooperation in a COVID-19 Pandemic World. http://en.cidca.gov.cn/2022-06/14/c_770501.htm*

*2. Allison, Q. (2017, 31 may). What Xi Jin-*

*ping Want. The Atlantic https://www.theatlantic.com/international/archive/2017/05/what-china-wants/528561/*

*3. Dünya Bankının açıq məlumat bazası. https://data.worldbank.org/indicator/NE.EXP.GNFS.ZS*

*4. Youyi, H. (2011, 15 iyun). Context, not history, matters for Deng's famous phrase. Global Times. https://www.globaltimes.cn/content/661734.shtml*

*5. McLaughlin, R. (2022, 27 oktyabr). The Law of the Sea and PRC Gray-Zone Operations in the South China Sea. Amerika Beynəlxalq Hüquq Jurnalı, cild 116, tiraj 4, səh. 821-835.*

*6. Rawnsley, G. D. Communicating Confidence: China's Public Diplomacy. Routledge Handbook of Public Diplomacy, 2-ci nəşr, səh. 284-300. 2020 Taylor & Francis, New York.*

**XÜLASƏ**

Xüsusilə Qlobal Cənuba yönəlmiş Kəmər və Yol Təşəbbüsünün (KYT) qlobal miqyasda əhəmiyyəti Çinin siyasi və iqtisadi strategiyalarının ayrılmaz hissəsidir. Şi Cinpinqin hakimiyyəti ilə Çin beynəlxalq arenada mövqeyini gücləndirməyi hədəfləyir və KYT bu kontekstdə Çinin siyasi prioritetlərinin dəyişməsi kimi önə çıxır. Çinin hərbi və diplomatik təsirini genişləndirmə səyləri ilə də sıx bağlı olan KYT, həmçinin, Çinin "Milli İntibah" və "Çin Arzusu" hədəflərinə də xidmət edir. Bu məqalə KYT və Çinin bu layihə vasitəsilə dünya ilə iqtisadi əlaqələrini necə inkişaf etdirməyi planlaşdırdığını araşdırır. Məqalə KYT-nin başlanğıcından bu yana keçdiyi təkamül yoluna nəzər salır, eləcə də Çinin iqtisadiyyatını və xarici siyasətini izah edən "İkili Dövriyyə Strategiyası"nı təhlil edir.

**Açar sözlər:** *Kəmər və Yol Təşəbbüsü, Milli İntibah, İkili Dövriyyə Strategiyası, Çin Arzusu*

**Aghalar Aghalarli**
***Doctoral student of Western Caspian University***
***Department of "International Relations"***
***E-mail: aghalaraghalarli@gmail.com***

**Analysis of China's Belt and Road Initiative through the Prism of the "National Rejuvenation" and "Dual Circulation Strategy"**

**SUMMARY**

The global significance of the Belt and Road Initiative (BRI), particularly directed toward the Global South, is an integral part of China's political and economic strategies. Under Xi Jinping's leadership, China aims to strengthen its position on the international stage, and in this context, the BRI emerges as a reflection of shifting political priorities. Furthermore, the BRI, closely tied to China's efforts to expand its military and diplomatic influence, also serves the goals of the "National Rejuvenation" and the "Chinese Dream." This article explores how China plans to develop its economic relations with the world through the BRI. It reviews the evolution of the BRI since its inception and analyzes the "Dual Circulation Strategy" that explains China's economy and foreign policy.

**Keywords:** *Belt and Road Initiative, National Rejuvenation, Dual Circulation Strategy, Chinese Dream.*

**Агалар Агаларлы**
***Докторант Западно-Каспийского Университета***
***Кафедра «Международные отношения»***
***E-mail: aghalaraghalarli@gmail.com***

**Анализ Инициативы «Пояс и путь» Китая через призму «Национального возрождения» и «Стратегии двойного обращения»**

**РЕЗЮМЕ**

Глобальная значимость Инициативы «Пояс и Путь», направленной, в частности, на Глобальный Юг, является неотъемлемой частью политических и экономических стратегий Китая. Под руководством Си Цзиньпина Китай стремится укрепить свои позиции на международной арене, и в этом контексте «Пояс и Путь» выступает как отражение изменения политических приоритетов. Кроме того, Инициатива тесно связана с усилиями Китая по расширению своего военного и дипломатического влияния и служит целям «Национального возрождения» и «Китайской мечты». В данной статье исследуется, как Китай планирует развивать свои экономические отношения с миром через «Пояс и Путь». Эта статья рассматривает эволюцию «Пояс и Путь» с момента его создания, а также в ней анализируется «Стратегия двойного обращения», объясняющая экономику и внешнюю политику Китая.

**Ключевые слова:** *Инициатива «Пояс и Путь», Национальное возрождение, Стратегия двойного обращения, Китайская мечта.*